


Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 116 (23.027)

23 iyun 2018-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 22-də Asiya İnkişaf Bankının İcraçı Direktorlar Şurasının üzvü Kşatrapati Şivajinin başçılığı ilə bankın Direktorlar Şurasının üzvlərindən ibarət nümayəndə heyətini qəbul edib.

Prezident İlham Əliyev Azərbaycan ilə Asiya İnkişaf Bankı arasında səmərəli əməkdaşlığın həyata keçirildiyini vurğulayaraq bankın ölkəmizdə müxtəlif infrastruktur layihələrinin maliyyələşdirilməsində yaxından iştirakını yüksək qiymətləndirib.

Asiya İnkişaf Bankının İcraçı Direktorlar Şurasının üzvü Kşatrapati Şivajin Azərbaycan ilə Asiya İnkişaf Bankı arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini qeyd edərək Cənub Qaz Dəhlizinin reallaşmasını bu əməkdaşlığın yaxşı nümunəsi kimi dəyərləndirib və bu dəhlizin çox mühüm layihə olduğunu vurğulayıb.

Söhbət zamanı məşğulluq strategiyası ilə bağlı məsələlər müzakirə edilib.

Görüşdə, həmçinin bankın 2019-2023-cü illər üzrə strategiyası, Azərbaycan ilə Asiya İnkişaf Bankı arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.



*23 iyun dövlət qulluqçularının peşə bayramı günüdür*

## Dövlət qulluğu xalqa və dövlətə xidmətdir



***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2006- cı il 5 may tarixli Sərəncamına əsasən hər il iyunun 23-ü ölkəmizdə Dövlət qulluqçularının peşə bayramı günü kimi qeyd olunur.***

Azərbaycanda müasir dövlət qulluğu sisteminin formalaşması və inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə ali hakimiyyətə gəlişindən sonra ölkəmizdə ictimai-siyasi sabitlik bərqərar edilmiş, dövlət idarəçiliyinin yeni əsasları formalaşdırılmış və Azərbaycan davamlı inkişaf yoluna qədəm qoymuş, bu sahədə zəngin qanunvericilik bazası yaradılmışdır. Görkəmli dövlət xadiminin təşəbbüsü və müəllifliyi ilə hazırlanan Konstitusiyamız müasir dövlət idarəçiliyinin və dövlət qulluğu sisteminin yaradılmasının hüquqi bazası rolunu oynamış, 2000-ci il iyulun 21-də "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.

Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu dövlət qulluğu siyasəti bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, bu sahənin inkişafına xüsusi diqqət yetirilir. Ölkə başçısının rəhbərliyi ilə bununla bağlı mühüm dövlət proqramları təsdiq olunmuş, dövlət qulluğu sahəsində mütərəqqi normativ-hüquqi baza formalaşdırılmış, işin səmərəliliyini artırmağa və mövcud çatışmazlıqları vaxtında aradan qaldırmağa təminat verən icra və nəzarət mexanizminin yaradılmasına diqqət artırılmışdır.

Naxçıvan Muxtar Respublikasında da dövlət qulluğu sahəsində aparılan islahatlar uğurla davam etdirilir. Son illər muxtar respublikada müasir tələblərə cavab verən dövlət qulluğu sistemi formalaşdırılmış, "Elektron hökumət" portalı, Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi sistemləri istifadəyə verilmiş, bəzi dövlət orqanları üzrə səyyar xidmətlər təşkil edilmişdir. Dövlət orqanları üçün ən müasir standartlara cavab verən yeni inzibati binaların tikilməsi və maddi-texniki bazanın gücləndirilməsi, dövlət qulluqçularının fəaliyyətlərinin yaxşılaşdırılması, onlara lazımi iş şəraitinin yaradılması, işində fərqlənən dövlət qulluqçularının təltif edilməsi dövlət qulluğu sahəsinə göstərilən diqqət və qayğının bariz nümunəsidir.

Son illər dövlət qulluğu sisteminin müasirləşdirilməsi diqqət mərkəzində saxlanılmış, Ali Məclis Sədrinin 2008-ci il 22 aprel tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya yaradılmışdır. Komissiyanın yaradılmasında əsas məqsəd muxtar respublikada kadr siyasətinin həyata keçirilməsi, dövlət qulluğu ilə bağlı qəbul edilmiş normativ-hüquqi aktların tətbiqinin təşkil edilməsi, dövlət qulluğu üçün kadrların müsabiqə yolu ilə seçilməsi, yerləşdirilməsi və digər məsələlər barəsində qanunvericiliklə nəzərdə tutulmuş siyasətin həyata keçirilməsini təmin etməkdən ibarətdir. Fəaliyyətə başladıqdan qısa müddət sonra komissiya üçün yeni inzibati binanın tikilməsi, informasiya və kommunikasiya texnologiyalarından istifadəyə imkan verən test mərkəzinin, lokal kompüter şəbəkəsinin, mərkəzi server sisteminin yaradılması fəaliyyətin günün tələbləri səviyyəsində qurulmasına şərait yaratmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov komissiya əməkdaşları qarşısında mühüm vəzifələr qoyaraq demişdir: ***"Komissiyanın əməkdaşları daim öz üzərlərində çalışmalı, müvafiq qanunvericilik bazasını, normativ-hüquqi aktları dərindən öyrənməli, onların tətbiqinə çalışmalı, ədalət və şəffaflıq prinsipinə daim əməl etməlidirlər. Çünki komissiyanın seçdiyi kadrlar dövlət qulluğu andı içərək dövlət qulluqçusu statusunu daşıyacaq, dövlətimizə sədaqətlə xidmət etmək üçün söz verəcəklər. Komissiya tərəfindən seçilən, dövlət qulluğuna qəbul olunan gənclər gələcəkdə Azərbaycan dövlətçiliyinin layiqli davamçıları olmalıdırlar".***

Komissiya tərəfindən bu günədək keçirilmiş 14 müsabiqədə 5068 namizəd iştirak etmiş, onlardan 983-ü müsabiqələri müvəffəqiyyətlə başa vuraraq dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinə təyin olunmuşdur. Hazırda muxtar respublikanın dövlət orqanlarında inzibati vəzifə tutan dövlət qulluqçularının 38 faizi komissiyanın keçirdiyi müsabiqələrdə uğur qazanmış, müasir dünyagörüşünə malik, işgüzar, savadlı, bacarıqlı, qanunvericilik və informasiya texnologiyaları üzrə bilikləri, habelə məntiqi düşüncə qabiliyyəti olan dövlət qulluqçularıdır. Komissiyanın keçirdiyi müsabiqələr nəticəsində məsləhətçi vəzifəsinə təyin olunmuş şəxslərdən bir qismi öz vəzifələrini uğurla yerinə yetirərək dövlət qulluğunda irəli çəkilmişlər. Yuxarıda qeyd olunanlar, o cümlədən keçirilən müsabiqələrdə iştirak edənlərin sayının ildən-ilə artması onu göstərir ki, bu sahədə həyata keçirilən dövlət siyasəti öz bəhrəsini verir və vətəndaşların, xüsusilə gənclərin dövlət qulluğuna marağı artır.

Bundan başqa, komissiya tərəfindən dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında vakant vəzifələrin tutulması üçün elan edilmiş müsabiqələrin test imtahanları keçirilmişdir. Naxçıvan Muxtar Respublikasının Daxili İşlər, Ədliyyə, Fövqəladə Hallar, Vergilər nazirlikləri, muxtar respublika Prokurorluğu, Dövlət Gömrük Komitəsi, Dövlət Miqrasiya Xidmətində vakant vəzifələrin tutulması və Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının üzvlüyünə qəbul üçün keçirilmiş 37 müsabiqədə iştirak edən 1781 namizəddən 499-u test imtahanlarında müvafiq keçid balını toplamışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən yeni proqram təminatının yaradılması komissiyanın fəaliyyətinin yaxşılaşmasına səbəb olmuş, elektron xidmətlərin həyata keçirilməsinə imkan yaratmışdır. Bütün bunlar elektron sənəd qəbulu işinin sürətlənməsinə, vaxt itkisinin minimuma endirilməsinə və şəffaflığın tam təmin olunmasına gətirib çıxarmışdır. Dövlət Qulluqçuları Reyestrinin aparılması üçün proqram təminatı hazırlanmışdır ki, bu da dövlət orqanlarının mövcud kadr potensialından səmərəli istifadə edilməsini, dövlət qulluqçuları haqqında məlumatların toplanılması və təhlilini, habelə dövlət qulluğuna kadrların seçilməsi işinin daha sürətli və keyfiyyətli həyata keçirilməsini təmin etmişdir. Hazırda muxtar respublikanın dövlət orqanlarında fəaliyyət göstərən 2493 vəzifəli şəxs barədə məlumatlar reyestrə daxil edilmişdir. Dövlət qulluqçularının 26 faizini gənclər, 22,7 faizini isə qadınlar təşkil edir.

Cari ildə komissiyanın rəsmi internet saytının yenilənməsi istiqamətində işlər görülmüşdür. Bu da namizədlərin komissiyaya gəlmədən, əlavə sənəd təqdim etmədən "şəxsi kabinet" vasitəsilə internet üzərindən qeydiyyatdan keçməklə test və müsahibələrdə iştirak etmələrinə şərait yaradır. Komissiyanın internet saytının təhlükəsizliyinin tam şəkildə təmin edilməsi məqsədilə "SSL" sertifikatı alınmışdır ki, bu da saytın elektron ödəniş sistemlərinə inteqrasiya edilməsinə imkan verir, namizədlərin elektron xidmətlərdən istifadə edərkən və qeydiyyatdan keçərkən fərdi və ödəniş kartı məlumatları qorunur.

Muxtar respublikamızda bu istiqamətdə həyata keçirilən tədbirlər dövlət qulluqçularının məsuliyyətini artırmaqla yanaşı, sivil, demokratik və vətəndaş cəmiyyətinin tələblərinə uyğun dövlət idarəçiliyi sisteminin qurulmasına səbəb olmuşdur. Dövlət qulluqçularının əsas vəzifələri isə xalqa və dövlətçiliyə sədaqətlə xidmət etməkdən, vətəndaşların hüquq və azadlıqlarını qorumaqdan, vətəndaşların və dövlətin maraqlarını uzlaşdırmaqdan ibarətdir. Dövlət qulluğu təkcə geniş səlahiyyət deyil, eyni zamanda cəmiyyətdə gedən proseslərin idarə olunması və cəmiyyətin inkişafı üçün məsuliyyət deməkdir.

*Dövlət qulluqçusu unutmamalıdır ki, o, idarəetmə və digər funksiyaları icra edərkən, ilk növbədə, dövlətin və cəmiyyətin mənafeyini əsas götürməli, ona tapşırılan hər bir vəzifəni böyük məsuliyyət və ləyaqətlə yerinə yetirməlidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi:* ***"Hər bir dövlət qulluqçusu bilməlidir ki, o, ilk növbədə, dövlətin güzgüsüdür. Dövlət qulluğunda çalışmaq o deməkdir ki, həmin vətəndaşa müstəqil, demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun ön sıralarında olmaq imkanı etibar edilmişdir. Hər bir şəxs bilməlidir ki, dövlət qulluğunda olmaq imtiyaz deyil, məsuliyyətdir, insanlara xidmət imkanıdır".***


**Rəşid TALIBOV**

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi***


## Məhsulların keyfiyyəti və rəqabət qabiliyyəti diqqət mərkəzindədir

Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi may ayında yerli məhsulların daxili və xarici bazarlarda rəqabətədavamlı olması üçün təsərrüfat subyektlərinin istehsal-xidmət şəraitinin standartlar səviyyəsinə uyğunluğunu diqqətdə saxlamış, ümumilikdə, məhsulların 102 halda keyfiyyət göstəricilərinin yoxlanılması təmin edilmiş və sertifikatlaşdırılmasına dair elektron xidmət vasitəsilə daxil olmuş 35 müraciət operativ icra olunmuşdur.

Yerli istehsal məhsullarının keyfiyyətinin qorunması məqsədilə 164 qida istehsalı müəssisəsinə maarifləndirmə xarakterli baxış keçirilmiş, aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması istiqamətində müvafiq işlər görülmüşdür. Təsərrüfat subyektlərindən götürülmüş məhsul nümunələrinin 90 halda laboratoriya analizləri aparılmış və texniki normativ-hüquqi aktların tələblərinə uyğun olduğu müəyyən edilmişdir.

Əhalinin hepatit virus infeksiyalarından qorunması işinə nəzarət üzrə may ayında 22 təsərrüfat subyektində 130 işçinin tibbi müayinəsi ilə bağlı monitorinqlər aparılmışdır.

Uşaq bağçalarının, məktəblərin, xəstəxanaların, digər təhsil və səhiyyə müəssisələrinin yerli məhsullarla təmin edilməsi və alınan qida məhsullarının keyfiyyətinin müntəzəm nəzarətdə saxlanılması istiqamətində 48 təhsil müəssisəsinin bufet və yeməkxanasında, 16 məktəbəqədər tərbiyə müəssisəsinin yeməkxanasında monitorinqlər, 7 səhiyyə müəssisəsinin yeməkxanasında yerli məhsullarla təminatın üstünlüyü barədə maarifləndirici tədbirlər aparılmış və aşkar olunmuş nöqsanlar aradan qaldırılmışdır.

Ailə təsərrüfatlarında istehsal olunan məhsulların marketlanmasına köməklik göstərilməsi üçün 765 etiket hazırlanmış və həmin təsərrüfatlara çatdırılmışdır.


***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin mətbuat xidməti***

# NAXÇIVAN -
## İslam Mədəniyyətinin Paytaxtı

***Naxçıvan dünyanın ən qədim, ilkin sivilizasiya mərkəzlərindən biridir. Naxçıvanda "sivilizasiyanın sübh çağı" olan Paleolit dövrünə aid Qazma və Daşqala kimi ilk insan düşərgələrinin olması qədim diyarın insanlığın ilkin beşiklərindən biri olduğunu nümayiş etdirir.***

Xüsusən Qazma mağarası Mustye dövrünə aid olub, Qafqazda neandertal insanın ən son dayanacağı kimi qəbul edilir. Qədimliyinə və xarakterinə görə Qazma mağarası məşhur Azıx mağarası ilə müqayisə oluna bilər.

Həzrəti Nuh Peyğəmbərin adı ilə bağlı olan çoxsaylı yer adlarının mövcudluğu faktı da Naxçıvanın sivilizasiya daşıyıcısı olan məkan olmasını bir daha təsdiqləyir. Naxçıvan ərazisindəki Gəmiqaya, Qapıcıq, Baca bulağı, Nəbi yurdu, Qaranquş yaylağı, Xəzər obası, Peyğəmbərayağı yaşayış yeri, məşhur Haçadağ, Nəsirvaz, Nəhəcir (Nuhəcir), Nehrəm (Nuhram), Nürgüt kimi kəndlərin adları və bu toponimlərlə səsləşən əsatirlər diyarın, həqiqətən də, qədim Nuhçıxan, yəni Nuh Peyğəmbərin gəmisinin gəlib çatdığı yer olduğunu nümayiş etdirir. Fikrimizcə, Naxçıvanqala ilə sağ tərəfdən Qızlar bulağı, sol tərəfdən isə Tumbul kəndi arasındakı ərazi "Nuhdaban" adlı ilkin şəhərin salındığı yerdir.

*Nuhdaban – Naxçıvandakı sivilizasiya damğasıdır. Nuh Peyğəmbərin Dünya tufanından sonra dabanını yerə basıb, oturaq həyata başladığı bu yerdə saldığı Nuhdaban yaşayış yeri Naxçıvan protoşəhərinin babasıdır.*

*Nuhdaban – Azərbaycanın Troyasıdır.*

*Nuhdaban – Duzdağ bəşəriyyətin babası Nuh Peyğəmbərin adı ilə bağlı olan qədim sivilizasiyanı yaşadan tarixin silinməz izləridir.*

*Nuh Peyğəmbərin məzarının burada yerləşməsi Naxçıvanın bəşər sivilizasiyasının baş kəndi olduğunu göstərir.*

*Naxçıvan şəhərinin adı da Dünya tufanı hadisəsi ilə bağlı olub, Nuhçıxan mənasını ifadə edir.*

*Nuhçıxan – Nuh Peyğəmbərin gəmisinin, nəhayət, quruya çıxması mənası ilə bərabər, həm də nuhçuların, yəni bəşəriyyətin xilaskarı olan Peyğəmbərin tərəfdarlarının yaşadığı yer mənasını da bildirir.*

Son illərdə Avropa alimlərinin toplayıb elmi dövriyyəyə daxil etdikləri Nuh Peyğəmbərin çağırışlarında "bütlərin qarşısında baş əyməyin" qadağan edilməsi və "Allahın adına hörmətlə yanaşmağın" xüsusi hökmlər kimi ifadə olunması notları *Naxçıvanın bütpərəstlikdən təkallahlılığa keçidin əsas mərkəzlərindən biri olduğunu, tanrıçılıq təliminin burada geniş yayıldığını sübut edir.*

*Gəmiqayadakı əlləri səmaya doğru ucaldılmış insan şəkilləri Tanrıya itaət edən ilk insanların ibadətini əks etdirir. Naxçıvandakı məşhur Əshabi-Kəhf ziyarətgahı təkallahlılığın ən qüdrətli carçısı olan Nuh Peyğəmbərin və onun tərəfdarlarının qədim ibadət yeridir.*

Təkallahlılıq – tanrıçılıq inancı İslama keçid üçün əsas körpü funksiyasını daşımışdır. Ona görə də tanrıçılığın ən mötəbər abidələrindən olan məşhur *Əshabi-Kəhf ziyarətgahı dərhal təkallahlılığa əsaslanan İslam dini ibadətgahına çevrilmişdir. Adına müqəddəs "Qurani-Kərim"də məxsusi bir surə həkk olunması Əshabi-Kəhfin İslam məbədgahı kimi qəbul olunmasında mühüm rol oynamışdır.*

Ərəb xilafətinin ərazi və idarəçilik iddialarına qarşı mübarizə aparan xürrəmilər hərəkatının Naxçıvanı da əhatə etməsi burada yeni ibadətgahların bir qədər gec salınmasına təsir göstərmişdir. Ona görə də Naxçıvanda qədim totemlərlə bağlı olan pirlər və ziyarətgahlar, xüsusən də Əshabi-Kəhf kimi təkallahlılıq mərkəzi ilkin funksiyasını dəyişərək uzun bir əsas İslam ibadət yerləri missiyasını həyata keçirmişdir. *Deməli, Naxçıvan türk-müsəlman dünyasında tanrıçılıqdan İslama keçidin əsas mərkəzlərindən biri olmuşdur.*



Naxçıvan qədim türk tayfalarının yaşadığı ərazilərdən biridir. Bizim eranın ikinci əsrində Naxçıvan ərazilərinə gəlmiş hunlar bu ərazilərin daimi sakinləri olan yerli prototürk mənşəli tayfalarla birləşmişdilər. Hunların gəlişini özündə əks etdirən Əbrə-hun-us (Əbrəqunus), Qarahun (Qarxun) yer adlarının Naxçıvanda daimi yaşayış məskənlərinə çevrilməsi də həmin gəlmə və yerli türk tayfa birləşmələrinin həmrəyliyi ilə əlaqədar baş vermişdir. Az sonra bu tayfa birliklərinin əsasında oğuz qəbilələri formalaşmış və *Naxçıvan İç oğuzun əsas mərkəzlərindən birinə çevrilmişdir.*

"Kitabi-Dədə Qorqud" dastanlarında Naxçıvanla bağlı olan 50-dən çox toponim burada Qalın Oğuz Eli hakimiyyətinin qüvvətli olduğunu göstərir. *Oğuzların dini dünyagörüşündəki tanrıçılıq və İslam amilləri bu tayfaların Naxçıvan ərazilərindəki tanrıçılıqdan İslamaqədərki inanclar sisteminin yaşadığını nümayiş etdirir.* Qorqud Atanın və digər oğuz başbilənlərinin Məhəmməd Peyğəmbərlə görüşmələrinə dair olan məlumatlar və "Kitabi-Dədə Qorqud" boylarındakı müsəlmanlığa aid ifadələr və bəzi ayinlər Azərbaycanda, xüsusən də Naxçıvanda oğuz tayfalarının tədricən İslamı qəbul etdiyini nəzərə çarpdırır. Beləliklə, türk sivilizasiyası ilə İslam dini təliminin sintezi hadisəsi baş vermiş, bu isə öz növbəsində, regionda böyük Renessans hadisəsinin formalaşması ilə nəticələnmişdir. XI-XII əsrlərin türk-müsəlman Renessansı Avropadan əvvəl baş tutmuş mükəmməl intibah hadisəsidir.

Azərbaycan intibahının yaratdığı şah əsərlərdə – məsələn, *Əcəmi Naxçıvaninin yaratdığı XII əsr məşhur Möminə xatın məqbərəsinin memarlıq həllində İslam dini əlamətləri ilə türk düşüncəsinin vəhdətdə ifadə olunması bu sənət əsərinə möhtəşəmlik gətirmişdir.* Belə ki, Möminə xatın məqbərəsinin üz səthində kufi xətlə "Qurani-Kərim"dəki "Yasin" surəsinin həkk olunması, baş tağında isə ərəb əlifbası ilə "Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar" kimi müdrik sözlərin yazılması mədəniyyətdəki türk-islam sintezinin ifadəsidir. Bundan başqa, Möminə xatın məqbərəsinin daxilindəki medalyonların qədim türk damğalarını, içərisindəki yazıların isə İslam tarixi adlarını əks etdirməsi də artıq *XII əsrdə İslam sivilizasiyasının yenitipli milli mədəniyyət yaratdığını sübut edir.* Dövrün təhsil sistemində də İslam dini ilə yanaşı, dünyəvi elmlərin də öyrədilməsi təmin edilmişdir.

Naxçıvanda XII əsrdə məşhur memar Əcəmi Naxçıvaninin inşa etdiyi möhtəşəm məscidin nəzdində fəaliyyət göstərmiş Ali mədrəsədə dini elmlərlə yanaşı, dünyəvi fənlər: həndəsə, tarix, riyaziyyat, əl-kimya, məntiq də tədris olunmuşdur. *Beləliklə, Naxçıvan həm də İslam maarifçiliyinin yüksək elmi səviyyədə mühüm mərkəzlərindən biridir.* Qədim dövrdə və orta əsrlərdə yaşayıb-yaratmış Naxçıvandan çıxan alimlərin, demək olar ki, hamısı İslam dinini şərh edən qiymətli əsərlər, tarixi-fəlsəfi traktatlar yazmışlar.

Nizami Gəncəvinin müasiri və dostu olmuş Əbubəkr ibn Xosrovun (XII əsr) "Munisnamə" əsərində qafiyəli nəsr nümunəsi olan şeirlərlə bərabər, dini hədislər və rəvayətlər də toplanılmışdır. Əslən Naxçıvandan olan Nəsirəddin Tusinin (1201-1274) yaratdığı Marağa Rəsədxanasında dini elmlərlə dünyəvi elmlər, xüsusən təbiət elmləri və dəqiq elmlər birlikdə öyrənilmiş, hər iki istiqamətdə qiymətli əsərlər yaradılmışdır. Mədrəsələrdə dərslik kimi istifadə olunan "Əxlaqi-Nasiri" əsərində ibrətamiz dini hekayələr öz əksini tapdığı kimi, "Zic-Elxani" ("Elxani cədvəlləri"), "Üstürlab" ("Astrologiya") kitablarında dəqiq və dünyəvi elmlərə dair problemlərdən yüksək elmi səviyyədə bəhs olunmuşdur. Nəsirəddin Tusinin "elm ölkəsinin şahı" adlandırılması onun bütün Şərqdə elmdə böyük şöhrət qazandığını göstərir.

XIII əsrdə yaşayıb-yaratmış Həsən ibn Ömər Naxçıvani İslam dünyagörüşü haqqında yazdığı əsərlərinə görə dünyada "Allahın fikrinə vaqif", "şeyxlər sülaləsinin sonuncusu" olan məşhur alim kimi qəbul edilmişdir. Baba Nemətullah Naxçıvaninin "Qurani-Kərim"ə yazdığı şərhlər bütün müsəlman dünyasında mükəmməl dini traktatlar olaraq yüksək qiymətləndirilmişdir. Əlaəddin Əbu Abdulla Naxçıvani "Qurani-Kərim"in məşhur bələdçisi və adlı-sanlı İslam hüququ mütəxəssisi kimi tanınmışdır. XVI əsrin tanınmış elm adamlarından olan Xacə Ətiq Ordubadi Məşhəddə məsul dini vəzifə daşımış, Şahruq mədrəsəsində dini fənləri tədris etmişdir. XVII əsrdə İbrahim ibn Zeynəddin Naxçıvani fiqh – şəriət elmləri üzrə dövrünün tanınmış alimlərindən biri olmuşdur.

Naxçıvan ərazisində XVII-XVIII əsrlərdə müxtəlif yerlərdə yaranmış müsəlman epiqrafik abidələri burada İslam mədəniyyətinin artıq geniş yayıldığını müşahidə etməyə imkan verir. Həmin kitabələrdə dini yazılarla yanaşı, bəzi tarixi məlumatların da əks etdirilməsi epiqrafik abidələrin mənbələrə çevrilməsini şərtləndirmişdir.

Bütün bunlar *Naxçıvan ərazisində İslam dininin fanatizm təzahürlərindən uzaq, pak və gerçək şəkildə, həm də elm və mədəniyyət səviyyəsində yaşadılmasını təmin etmişdir. Fikrimizcə, tanrıçılığın ən qədim mərkəzlərindən biri olması, tanrıçılıqdan İslama keçidin özünəməxsusluğu və nəhayət, İslam maarifçiliyinə və elminə verdiyi böyük töhfələr Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi üçün əsas amillər hesab edilə bilər. Naxçıvan bəşəriyyətə bəxş etdiyi elmi-mənəvi sərvətlərlə türk-islam mədəniyyətinin əsas mərkəzlərindən biri kimi qəbul olunur.*

Məlum olduğu kimi, Naxçıvan şəhərində fəaliyyət göstərən Açıq Səma Altında Muzeydə Azərbaycan tarixinin ən müxtəlif dövrlərini əks etdirən maddi-mədəniyyət nümunələri qorunub saxlanılır və təbliğ olunur. Lakin fikrimizcə, *Naxçıvan diyarı başdan-başa dünyanın ən möhtəşəm memarlıq muzeyidir.* Ərazi etibarilə kiçik olmasına baxmayaraq, dünya səviyyəli, ölkə və yerli əhəmiyyət kəsb edən abidələrin sayına, səviyyəsinə, özünəməxsusluğuna görə Naxçıvan diyarı ilə müqayisə edilə biləcək regionlar Yer kürəsində çox deyildir.

Böyük memar Əcəmi Naxçıvaninin yaratdığı Naxçıvan şəhərindəki XII əsrə aid *Möminə xatın məqbərəsi Azərbaycanın Tac Mahalıdır.* Məşhur rus sənətşünas akademiki M.Alpatov Möminə xatın abidəsini Nizami Gəncəvinin "Xəmsə"si ilə müqayisə etmişdir. *Möminə xatın abidəsi Azərbaycan memarlığının daş "Xəmsə"sidir.* Əcəmi Naxçıvani, sadəcə, memar deyildir, Şərq memarlıq məktəbinin banisidir. Əcəmi Naxçıvani Azərbaycan memarlığının Leonardo da Vinçisidir. Fikrimizcə, Naxçıvandakı Möminə xatın məqbərəsi, Yusif Küseyiroğlu, Gülüstan və Qarabağlar türbələri UNESCO-nun dünya mədəni irs siyahılarında yer tutmağa və beynəlxalq turizm obyektləri kimi təbliğ edilməyə layiqdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında" 2 iyun 2016-cı il tarixli Sərəncamında da "sivilizasiyalararası dialoqa mühüm töhfələr verən", "tarixən Yaxın və Orta Şərqin əzəmətli şəhərlərindən biri" olmuş Naxçıvanın "bütün böyük keçmişi ərzində İslam mədəniyyətinin çoxəsrlik nailiyyətlərinin layiqincə qorunub saxlanılmasında özünəməxsus rol oynadığı" xüsusi olaraq diqqət mərkəzinə çəkilmişdir. *Möhtərəm Prezidentin mühüm tarixi əhəmiyyətə malik olan sərəncamındakı həmin fikirlər həm də Naxçıvanda əsrlərboyu formalaşdırılıb inkişaf etdirilmiş böyük mədəniyyətə dövlət səviyyəsində verilmiş yüksək qiymətin ifadəsi kimi də mühüm əhəmiyyətə malikdir.*

*Ümumiyyətlə, Azərbaycanda türk sivilizasiyası ilə İslam dini dünyagörüşünün sintezi xüsusi bir hadisəni – intibahı yaratmışdır. XII əsr Azərbaycan intibahı türk-islam Renessansı hadisəsidir.*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi düşünülmüş, məqsədyönlü tədbirlər yeni tarixi epoxada ölkəmizdə müasir intibah səviyyəsinin yaradılmasına tam təminat verir. Əslində, XXI əsrdə ölkəmizdə dövlət səviyyəsində həyata keçirilən silsilə İslam həmrəyliyi tədbirləri Azərbaycan miqyasında milli-mənəvi dəyərlər və mədəniyyətlərlə İslam dininin yenidən, fərqli bir səviyyədə çarpazlanması prosesinin getdiyini göstərir. Regionlarda müstəqilliyin başlanğıc illərində məscidlərin tikilməsi dalğasının təntənə məktəblərin və mədəniyyət ocaqlarının inşa edilməsi hərəkatına çevrilməsi, nəticədə, hər iki istiqamətin inkişaf etdirilməsi milli intibaha doğru açılan yolların əsas əlamətlərini özündə cəmləşdirir. Bura müstəqillik illərində, xüsusilə güclənən folklorşünaslıq, etnoqrafiya, epiqrafika, numizmatika, xalq sənəti sahələri ilə yanaşı, multikulturalizm,

Ardı 3-cü səhifədə







dinlərarası dialoq və tolerantlıq, habelə İslamşünaslığın da elmi əsaslarla inkişaf etdirildiyini də əlavə etsək, cəmiyyətdə elm, ədəbiyyat və mədəniyyət hadisəsi kimi intibah proseslərinin inkişaf etməkdə olduğunu müşahidə edə bilərik. Üstəgəl, ölkəmizdə tranzit əlaqələrinin geniş şəbəkəsinin yaradılması: Bakı-Tbilisi-Qars, "Şimal-Cənub", "Şərq-Qərb" magistrallarının dövriyyəyə daxil olması intibah proseslərinə ciddi təkan verir. Tranzit əlaqələri iqtisadi inkişafla mədəni inkişaf arasında körpü funksiyasını həyata keçirir.

Aşkar müşahidə olunur ki, Azərbaycanın ayrılmaz üzvi tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında müasir dövrdə milli-mənəvi dəyərlərin sürətli inkişafı ilə İslam dini dünyagörüşünün yenidən çuğlaşması və elmin, məktəbin, universitetlərin fəaliyyətlərinin genişləndirilməsi yeni intibah proseslərini doğurmuşdur.

*Naxçıvanın Sədərək-Dilucundan Türkiyəyə və oradan da Avropaya, Culfa və Şahtaxtıdan İrana və Şərqə açılan qapıları buradakı mənəvi-mədəni inkişafın zənginləşdirilməsinə münasib meydan açır.* Naxçıvan-Təbriz-Məşhəd qatarının və İstanbul-Naxçıvan-Gəncə, Moskva-Naxçıvan aviareyslərinin davamlı fəaliyyəti də mədəniyyətlərin inteqrasiyasını sürətləndirən amillərdəndir. Klassik intibahdakı antik mədəniyyətə qayıdışı yeni tarixi epoxada milli-mənəvi dəyərlərə dönüş prosesləri əvəz edir. 70 illik sovet rejiminin uzun müddət arxa plana keçirdiyi milli-mənəvi dəyərlərin ölkənin antik sərvəti kimi dirçəldilməsi prosesinin Naxçıvanda geniş miqyas alması yeni intibahda ölkə faktorunu daha da qüvvətləndirir.

İslam Mədəniyyətinin Paytaxtı miqyasında 2018-ci ildə Naxçıvanda keçirilmiş elmi-mədəni tədbirlər, bərpaolunan və inşa edilən məscidlər və mədəni-tarixi abidələr, keçirilən elmi konfranslar, çap olunan əsərlər, təşkil olunacaq şənliklər çox fərqli və əhəmiyyətli bir dirçəlişin göstəriciləridir. Bu genişmiqyaslı prosesin adı intibahdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də bu ilin may ayında Naxçıvana səfəri zamanı regionda milli intibaha aparan hərtərəfli inkişaf proseslərinin getdiyini qiymətləndirərək demişdir:

***"Naxçıvan Muxtar Respublikası bütün iqtisadi göstəricilərinə görə çox sürətlə inkişaf edən respublikadır. Son 15 il ərzində muxtar respublikanın ümumi daxili məhsulu on dəfəyə yaxın artıbdır. Bu, məncə, dünyada rekord göstəricidir. ...Sosial məsələlərin həlli, tikilən xəstəxanalar, məktəblər, Olimpiya mərkəzləri, mədəniyyət ocaqları... əlbəttə ki, respublikanın potensialını artırır. ...Naxçıvan dəmir yolu ilə Azərbaycanın əsas hissəsi ilə birləşəcək və beləliklə, blokadadan, mühasirədən canını qurtaracaqdır. ...Naxçıvan "İslam Mədəniyyətinin Paytaxtı" kimi şərəfli adı daşıyır. ...Bilirəm ki, bu gözəl hadisə ilə bağlı ...çoxlu qonaqlar gələcəklər, bir daha görəcəklər ki, dünyada belə gözəl məkan var. Gözəl təbiəti, iqlimi, havası, mənzərəsi, binaları və ən önəmlisi isə gözəl insanları olan məkan var. Bu məkanın adı Naxçıvandır".***















*Müstəqillik dövründə Naxçıvanın keçdiyi çətin, məsuliyyətli və şərəfli yol hərtərəfli müasir inkişafın parlaq bir nümunəsidir.* Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun yorulmaz fəaliyyəti və böyük əzmi ilə əsaslı şəkildə yenidən qurulan Naxçıvan Muxtar Respublikasının 2017-ci ildə Azərbaycanın iqtisadi rayonları arasında birincilik qazanması bu diyarda baş vermiş böyük inkişafın geniş miqyasını təsəvvür etməyə imkan yaradır.

*Muxtar respublika hazırda Azərbaycanın tərkibində bütün yönləri ilə inkişaf etmiş ictimai-siyasi, iqtisadi-mədəni və elmi mərkəzi kimi nümunə göstərir. Son günlərdə Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun Şərur rayonunun Danyeri kəndi ərazisindəki Qızılqaya yüksəkliyini fəth edərək orada böyük həcmdə torpaqlarımızı işğaldan azad etməsi Naxçıvandakı müasir inkişafın doğurduğu dərin milli iftixar duyğusunu bir daha qüvvətləndirmişdir.*

Əlbəttə, Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı seçilməsi möhtərəm Prezidentimizin uzaqgörən siyasətinin parlaq bir hadisəsidir. Bu, ölkəmizin bu diyarının sürətli inkişafına təkan verməklə yanaşı, həm də Naxçıvanı dünyaya tanıtmaq, blokadanı bir daha qırmaq, böyük yüksəliş üçün yeni qapılar açmaq məqsədlərinin həyata keçirilməsinə xidmət edən müdrik bir siyasətdir. Heç şübhə yoxdur ki, Naxçıvanda İslam Mədəniyyətinin Paytaxtı tədbirlərinin yüksək səviyyədə keçirilməsi həmin istiqamətlərin hər biri üzrə yeni inkişafa böyük stimul verəcəkdir. Bu, universitetlər, muzeylər, abidələr, gözəlliklər və zəngin təbii sərvətlər diyarı olan Naxçıvana dünyanın hər tərəfindən tələbə və turist axınlarının genişləndirilməsinə, burada iqtisadi və mədəni əlaqələrin sürətlənməsinə özünün real töhfələrini verəcəkdir. Hazırda İslam Mədəniyyətinin Paytaxtı olmağın real təntənəsini yaşayan Naxçıvan, ümumiyyətlə, hərtərəfli inkişafa malik böyük mədəniyyət paytaxtı kimi dünyanın diqqətini cəlb edəcəkdir.

**İsa HƏBİBBƏYLİ**
***Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik***
***"Azərbaycan" qəzeti***
***21 iyun 2018-ci il***

*24 iyun maşınqayırma sənayesi işçilərinin peşə bayramıdır*

## Maşınqayırma sənayesi iqtisadi inkişafın əsasını təşkil edir

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2012-ci il 19 noyabr tarixli Sərəncamına əsasən hər il iyunun 24-ü Azərbaycanda maşınqayırma sənayesi işçilərinin peşə bayramı kimi qeyd olunur.***

Azərbaycanda sənayeləşmə siyasətinin əsası ötən əsrin 70-80-ci illərində ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Həmin dövrdə neft maşınqayırma kompleksi, dərin özüllər, məişət kondisionerləri, elektron hesablama maşınları zavodları istifadəyə verilmişdir. Sənaye sahələrinin şaxələnməsi həyata keçirilərək neft maşınqayırması ilə yanaşı, dəzgahqayırma, elektrotexnika və elektronika, cihazqayırma, yol-inşaat maşınları və digər sahələr inkişaf etdirilmişdir.

Bu gün ölkə iqtisadiyyatının bütün sahələrində olduğu kimi, sənayenin inkişafında da böyük uğurlar qazanılmış, sənaye məhsulları istehsalının həcmi ildən-ilə artmışdır. Bu müddət ərzində rəqabətqabiliyyətli müasir sənaye sahələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması sahəsində çoxsaylı layihələr icra edilmiş, yeni iş yerləri açılmış, ölkə sənayesi müasir inkişaf mərhələsinə qədəm qoymuşdur. İqtisadiyyatda əldə olunmuş makroiqtisadi sabitlik, dinamik iqtisadi artım və əhalinin sosial rifahının yüksəldilməsi sahəsində qazanılan uğurlar həyata keçirilən sistemli və ardıcıl fəaliyyətin nəticəsidir.



Ölkəmizin müasir sənayeləşmə hərəkatına Naxçıvan Muxtar Respublikası da öz töhfələrini verir. Muxtar respublikanın şəhər və rayonlarında yaradılmış sənaye müəssisələri daxili tələbatı ödəməklə yanaşı, ixracyönümlü məhsul istehsalına da şərait yaradır. Gəmiqaya Sənaye Kompleksi, Gəmiqaya Sement Zavodu, Cahan Sənaye Kompleksi, Dizayn Sənaye Kompleksi, Naxçıvan Sənaye Kompleksi, Naxçıvan Avtomobil Zavodu və digər müəssisələrin yaradılması muxtar respublika sənayesinin növbəti mərhələdə daha dərin şaxələndirmə siyasətinin həyata keçirilməsinə geniş imkanlar açmışdır.

Son illərdə yeni və müasir avadanlıqlarla təchizat, son texnologiyaların tətbiqi maşınqayırma müəssisəsinin həm istehsal gücünü, həm də yeni çeşiddə məhsullar istehsal etmək imkanını artırmışdır. Hazırda maşınqayırma sənayesində rəqabətqabiliyyətli məhsullar istehsal edilir. Əsasən də avtomobillərin istehsalı xüsusi əhəmiyyət daşıyır. Azərbaycanda minik avtomobilləri istehsal edən yeganə müəssisə olan Naxçıvan Avtomobil Zavodu maşınqayırma sənayesinin inkişafında xüsusi çəkiyə malikdir. Naxçıvan Avtomobil Zavodu nəqliyyat vasitələrinə artan tələbin daxili istehsal hesabına ödənilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Zavodda 2010-cu ildə 4 modeldə avtomobil istehsal olunurdusa, hazırda 15 modeldə "NAZ-Lifan" avtomobili istehsal edilir.

Zavod Azərbaycanda yeganə müəssisədir ki, avtomobillərin bütün hissələri burada yığılır. Bu da istənilən modeldə minik və yük avtomobillərinin istehsalına imkan verir. Hazırda istehsal olunan maşınların daha münasib qiymətə istehlakçılara təqdim olunması ilə əlaqədar layihələr hazırlanır. Müəssisədə möhürləmə, qaynaq və boyama sahələrinin yaradılması istiqamətində işlər davam etdirilir. Həmçinin avtomobilin müəyyən hissələrinin Naxçıvanda istehsal edilməsi nəzərdə tutulur. Xaricdə istehsal olunan avtomobillərdən daha ucuz qiymətə satışa çıxarılan "NAZ-Lifan" markalı minik avtomobillərinə tələbat ildən-ilə artır.

Naxçıvan Avtomobil Zavodunun Naxçıvan və Bakı şəhərlərində satış mərkəzləri, texniki xidmət şöbələri və avtomobillərin ehtiyat hissələrinin satışı mağazaları açılmışdır. Yaxın vaxtlarda isə Şərur və Culfa rayonlarında avtomobillərin servis mərkəzinin yaradılması başa çatdırılacaqdır. Bu, həmin rayonlarda istismar olunan "NAZ-Lifan" markalı minik avtomobillərinə yerində texniki xidmət göstərilməsinə əlverişli şərait yaradacaq.

Hazırda ölkəmizdə avtomobil bazarı daha çox xarici ölkələrin istehsal məhsulları hesabına təmin olunsa da, yaxın illərdə yerli və müştərək müəssisələrin istehsal fəaliyyətinin güclənməsi nəticəsində milli brendlər daxili bazarda xüsusi yer tutmağa başlamışdır. Dünyanın ən nəhəng maşınqayırma müəssisələrinin Azərbaycanda öz istehsal sahələrini yaratmaq niyyətlərinin gerçəkləşməsi isə bu sahənin yüksək inkişafını təmin edəcəkdir. Onu da nəzərə almaq lazımdır ki, maşınqayırma sənayesinin davamlı şəkildə inkişafı minlərlə yeni iş yerinin açılması deməkdir. Bu isə insanların məşğulluğunun təmin olunması, sosial vəziyyətlərinin yaxşılaşması baxımından mühüm əhəmiyyət kəsb edir.

Peşə bayramlarını qeyd edən maşınqayırma sənayesi işçiləri bundan sonra da istehsal çeşidlərinin və həcminin artırılması, ixrac potensialının genişləndirilməsi sayəsində səylərini artıracaqlar.

**Çinarə BALAYEVA**
***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

# Urmiyalı həkimlər Naxçıvanda səfərdədir

***Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında mövcud olan qarşılıqlı əlaqələr səhiyyə sahəsində də tərəfdaşlığın inkişafı üçün geniş imkanlar açır. Bu əməkdaşlıq çərçivəsində naxçıvanlı həkimlərdən ibarət nümayəndə heyəti cari ilin aprel ayında İran İslam Respublikasının Qərbi Azərbaycan vilayətinin mərkəzi Urmiya şəhərində səfərdə olub, burada fəaliyyət göstərən özəl “Azərbaycan” xəstəxanasında keçirilən beynəlxalq elmi konfransda iştirak edib. İran İslam Respublikası Qərbi Azərbaycan vilayətinin Urmiya şəhərində fəaliyyət göstərən özəl “Azərbaycan” xəstəxanasının yüksəkixtisaslı həkim heyəti isə iyunun 22-də Naxçıvana səfərə gəlib.***





Şahtaxtı gömrük məntəqəsində qarşılanan qonaqlar əvvəlcə Şərur Rayon Mərkəzi Xəstəxanası ilə tanış olublar. Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Samrat Gəncəyeva məlumat verib ki, bu gün muxtar respublikada əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi dövlət qarşısında duran ən mühüm vəzifələrdəndir. Aparılan genişmiqyaslı islahatlar çərçivəsində səhiyyə ocaqları üçün yeni binalar tikilir, mövcud binalar yenidən qurularaq ən müasir tibbi avadanlıqlarla təchiz olunur. Şərur Rayon Mərkəzi Xəstəxanası da belə səhiyyə müəssisələri sırasındadır. Ötən il burada əsaslı təmir işləri aparılmışdır. Buradakı müasir tibbi avadanlıqlar müayinə və müalicə işlərinin yüksək səviyyədə təşkilinə imkan verir.

Hazırda Şərur Rayon Mərkəzi Xəstəxanası ilə yanaşı, Aşağı Aralıq kənd sahə xəstəxanası, 27 həkim ambulatoriyası 33 feldşer-mama məntəqəsi rayon sakinlərinə tibbi xidmət göstərir. Son illər həmin müəssisələr keyfiyyətli tibbi xidmət göstərilməsinə imkan verən bütün zəruri avadanlıqlarla təmin edilib.

Günün ikinci yarısında qonaqlar Naxçıvan şəhərində fəaliyyət göstərən səhiyyə müəssisələrində olublar. Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzi ilə tanışlıq zamanı məlumat verilib ki, bu səhiyyə müəssisəsi dünya təcrübəsindən bəhrələnərək tibbi xidmətin müasir səviyyədə təşkilinə öz töhfələrini verir. Müasir avadanlıqlarla təchiz olunmuş və yüksəkixtisaslı həkimlərin çalışdığı xəstəxanada ginekoloji xəstəliklərin vaxtında aşkar edilməsi, müalicə işinin düzgün və səmərəli qurulması üçün profilaktik müayinə tədbirləri daha da gücləndirilir. Nəticədə, ana və uşaqların sağlamlığını xarakterizə edən göstəricilərdə müsbət dinamika müşahidə olunur.

Hazırda reproduktiv sağlamlıq və ailə planlaşdırılması problemlərinə nəzarət daha da gücləndirilib, səhiyyə maarifi işləri günün tələbləri səviyyəsində qurulub.

Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzi ilə tanışlıq zamanı qonaqlara bildirilib ki, bu səhiyyə müəssisəsi 2009-cu ildə tam müasir tələblərə cavab verən binaya köçürülüb, onkoloji xəstəliklərin diaqnostikası və müalicəsi üçün müasir tələblərə cavab verən aparatlar quraşdırılıb. Hazırda mərkəzdə süd vəzi xərçənginin diaqnostikası üçün ultrasəslə müayinə, rəqəmsal mammoqrafiya aparatları, histoloji və sitoloji laboratoriya fəaliyyət göstərir. Həmçinin mərkəzdə rəqəmsal rentgen aparatı quraşdırılıb, şüa müalicəsinin ROKS – AM aparatı vasitəsilə aparılması təmin edilib. Onkoloji xəstəliklərin diaqnostikası və müalicəsinin yüksək səviyyədə təşkil olunması üçün müasir standartlara tam cavab verən qısa məsafəli Rentgen terapiya aparatı qurulub.

Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində muxtar respublikanın səhiyyə sistemində aparılan islahatlar barədə məlumat verilib. Bildirilib ki, cari il iyunun 1-dən publik hüquqi şəxs kimi fəaliyyət göstərən bu müəssisə çoxprofilli stasionar və ambulator tibbi yardım göstərən müalicə və profilaktika təyinatlı müəssisədir. Burada muxtar respublikanın yerli kadrları müstəqil şəkildə xəstələr üzərində açıq ürək, angioqrafiya, laparoskopik, TUR, LOR, göz və digər mürəkkəb cərrahi əməliyyatları uğurla həyata keçirirlər.

Nümayəndə heyəti sonra Naxçıvan şəhərinin görməli yerləri ilə tanış olub. Tədbir bu gün dünya səhiyyəsinin aktual məsələlərinə həsr olunmuş elmi-praktik konfransla davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

Naxçıvan Muxtar Respublikasının dövlət orqanlarında mətbuat xidmətlərinin fəaliyyətlərinin təşkili və qarşıda duran vəzifələrlə bağlı 19 may 2018-ci il tarixdə keçirilən tədbirdə qarşıya qoyulmuş tapşırıq-

# Attestasiyanın növbəti mərhələsi keçirilib

ların icrasının təmin edilməsi məqsədilə dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən attestasiyaya cəlb olunmuş dövlət orqanlarının mətbuat və ictimaiyyətlə əlaqələr üzrə məsul əməkdaşlarının esse imtahanı mərhələsi keçirilib.

Test imtahanında uğur qazanan 13 nəfər bu mərhələdə iştirak edib. Əvvəlcə iştirakçılar imtahan qaydaları haqqında məlumatlandırılıb, esse yazmaq üçün onlara 60 dəqiqə vaxt verilib. Obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə imtahanın videoçəkilişi aparılıb.

İmtahanda iştirakçılara müstəqil mühakimə yürütmək və əsaslandırmaq bacarığını nümayiş etdirməyə imkan verən “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı kimi” mövzusu təqdim edilib.

Yazı işləri yoxlanılarkən tələb olunan meyarlar nəzərə alınıb və iştirakçıların yaradıcılıq qabiliyyətləri qiymətləndirilib.

İmtahanın nəticələri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın rəsmi internet səhifəsində *(www.dqmk.nmr.az)* yerləşdirilib.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

# Muxtar respublikanın təbliğində mühüm rol oynayan sahə: idman

## *“Heydər Əliyev kuboku” turniri bunu bir daha sübut etdi*

***Müasir dünyada idman insanların fiziki inkişaf səviyyəsini qiymətləndirmək vasitəsi kimi ümumbəşəri mədəniyyətin tərkib hissəsinə çevrilib. İdman ictimaiyyətinin qənaətinə əsasən mənəvi, fiziki və əqli sağlamlıq xalqın ümumi sağlamlığı, millətin bu günü və sabahıdır. Məhz buna görə də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev daim gənclərin idmana cəlbi, fiziki, mənəvi inkişafı istiqamətində bir sıra mühüm proqramlar və tədbirlər həyata keçirir. Bunun nəticəsidir ki, Azərbaycan indi beynəlxalq arenada idman ölkəsi kimi tanınır.***



Bu gün ölkəmiz dünyanın idman mərkəzlərindən birinə – mötəbər beynəlxalq idman yarışlarının ünvanına çevrilib. Onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da idmanın inkişafı daim diqqət mərkəzindədir. Belə ki, muxtar respublikamız son illər əhəmiyyətli beynəlxalq miqyaslı yarışlara, turnirlərə, festivallara ev sahibliyi edir.

Cari ilin may ayında ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş bir sıra turnirlər, yarışlar təşkil edildi. Keçirilən tədbirlərin beynəlxalq əhəmiyyəti idmançıların mötəbər turnirlərin qalibi olmaq istəyini daha da artırmışdı.

Ötən günlərdə Naxçıvanda keçirilmiş və ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş futbol üzrə “Heydər Əliyev kuboku” turniri ölkənin idman ictimaiyyətində böyük maraq oyatdı. Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Futbol Federasiyası və Peşəkar Futbol Liqasının birgə təşkil etdiyi turnir artıq ənənə halını alıb və üçüncü dəfə idi ki, təşkil edilirdi. Turnirin son görüşündən öncə tamaşaçıların alqış sədaları altında “Heydər Əliyev kuboku” stadiona gətirilib, tanınmış müğənnilər Elton Hüseynəliyevin və Əli Pormehrin ifalarında rəngarəng mahnılar səsləndirilib, könüllülərin müxtəlif idman növləri üzrə hazırladıqları səhnələr nümayiş olunub.

“Heydər Əliyev kuboku” turniri də muxtar respublikada idmana göstərilən diqqət və qayğının bariz nümunəsidir. Bəs bu turnir Naxçıvanın idman ictimaiyyətinə, idmançılarına nə qazandırdı?

İlk olaraq qeyd edək ki, idman turizm potensialının, beynəlxalq yarışların turizm imkanlarının təbliğinə və bu sahənin inkişafına hər zaman öz töhfəsini verib və verməkdədir. Son illərdə muxtar respublikamızda keçirilən idman tədbirləri sayəsində turizm sahəsində sürətli inkişaf müşahidə edilib. Muxtar respublikada turizmin inkişafı istiqamətində həyata keçirilən kompleks tədbirlər müsbət bəhrəsini verir. Hər il keçirilən tədbirlərdə regiona yüzlərlə turist gəlir. İdman arenalarında artıq özünə layiqli yer tutan Naxçıvanın beynəlxalq turnirlərə ev sahibliyi etməsi iqtisadi nailiyyətlərimizi də artırır. İndi muxtar respublikanın idman həyatında böyük canlanma var. Nəticədə, gələcəyə hesablanmış idman siyasəti məmləkətimizdə sağlam və böyük idmançı ordusu formalaşdırıb. Təbii ki, bunların əsasını həyata keçirilən idman siyasəti, idmanın inkişafına dövlət tərəfindən göstərilən diqqət və qayğı təşkil edir.

Keçirilən bu turnirlər həm də idmançılarımızın, ictimaiyyətimizin fərqli milli və dini mənsubiyyəti olan xalqlarla, müxtəlif millətlərin nümayəndələri ilə qarşılıqlı əməkdaşlıq, mehriban birgəyaşama mədəniyyəti formalaşdırır. Təsadüfi deyil ki, muxtar respublikamızda son illər keçirilən beynəlxalq tədbirlər bura təşrif buyuran qonaqlarda xoş təəssüratlar formalaşdırır. Çünki Naxçıvan nəinki yerləşdiyi regionda, hətta dünyada sabitlik, əmin-amanlıq məkanı kimi ad qazanıb.

Naxçıvanda ölkədaxili və beynəlxalq tədbirlərin keçirilməsi hər zaman təşkilatçılıq, təhlükəsizlik və iqtisadi baxımdan da seçilib. Çünki etibarlı tərəfdaşlığa, qonaqpərvərliyə, müasir iqtisadiyyata və mükəmməl turizmə malik olması belə tədbirlərə ev sahibliyi etmək imkanlarımızı artırır. Bu, idman tərəfdaşlığı ilə yanaşı, həm iqtisadi, həm də strateji baxımdan mühüm əhəmiyyətə malikdir. Nəticə etibarilə deyə bilərik ki, gələn qonaqlarla etibarlı tərəfdaşlıq muxtar respublikamıza investisiya axınlarını sürətləndirir, digər ölkələrin nümayəndələri ilə münasibətlərin fonunda yeni lahiyələrin formalaşmasının əsası qoyulur. Müasir iqtisadçıların təbirincə desək, idmanın iqtisadi faydası spesifik iqtisadi hesablamalarla aparılır. Bu, müasir dünyanın reallığıdır.

Digər tərəfdən, Naxçıvan Muxtar Respublikasında idmanın inkişafı bütün növlərdə öz modelini ortaya qoyub. Diyarımızda idmanın çəkisi, rolu gənclərimizin bu sahəyə axını ilə nəticələnir. Uşaq, yeniyetmə və gənclərin sağlam böyüməsi, onların fiziki və mənəvi inkişafı, milli ruhda tərbiyələndirilməsi, sağlam nəslin yetişdirilməsi hər zaman Naxçıvanda diqqət mərkəzində olub.

Son olaraq futbol turnirinin yüksək səviyyədə təşkili mühüm əhəmiyyət kəsb etdi. Bu turnir Naxçıvanda ümumi hədəflər və gələcək istiqamətləri bir daha nümayiş etdirmiş oldu. Bunun üçün potensialımız var, ən böyük gücümüz isə Naxçıvanımızda ictimai-siyasi sabitliyin, dinamik inkişaf tempinin təmin olunmasıdır.

Muxtar respublikada mötəbər idman yarışlarının keçirilməsi bu sadaladığımız göstəricilərin təmin olunmasını bütün dünyaya nümayiş etdirir. Bu isə xarici və yerli qonaqların intensiv olaraq Naxçıvana səyahət etmələrinə zəmin yaradıb.

**✍ Ceyhun MƏMMƏDOV**

# “Yaşıl şəhərlər” üzrə Fəaliyyət Planı layihəsinin panel müzakirələri olub



“Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018” tədbirləri çərçivəsində Naxçıvan Şəhər İcra Hakimiyyətində İSESKO-nun “Yaşıl şəhər strategiyası”nın həyata keçirilməsi ilə bağlı ekspertlərin görüşü “Yaşıl şəhərlər” üzrə Fəaliyyət Planı layihəsinin panel müzakirələri ilə davam edib.

Tədbirdə Misirin “Yaşıl şəhər strategiyası” üzrə eksperti, professor Mohsen Abouelnaga “Yaşıl şəhərlər strategiyası”nın prinsipləri barədə danışaraq qeyd edib ki, onun yaradılması, həm də yeni iş yerlərinin açılması deməkdir. Bildirilib ki, bunun üçün İslam dünyasından olan təcrübəli mütəxəssislər cəlb edilməli, birgə təcrübə mübadiləsi aparılmalıdır.

Tədbirdə layihənin mexanizmləri, hədəfləri barədə məlumat verilib.

Sonra tədbir iştirakçıları ilkin layihə sənədləri ilə tanış olublar. Ekspertlər qruplar şəklində layihəni təhlil edib, müzakirələr aparıblar.

Sonda iştirakçılara İSESKO-nun sertifikartları verilib.

**Xəbərlər şöbəsi**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Gülcamal Tahirova
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 1490. Sifariş № 456